Cari hesabın açılması

(Dövlət orqanları, bələdiyyələr, hüquqi şəxslər və fərdi sahibkarlar üçün)

1. Ərizə;
2. Dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatlara bank hesabının açılması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin icazə məktubu;
3. Bələdiyyənin Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktın mətni;
4. Hüquqi şəxsin Nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
5. Müvafiq dövlət hakimiyyəti orqanının aktı ilə təsdiq olunmuş Nizamnamə (Əsasnamə) əsasında fəaliyyət göstərən dövlət orqanının Nizamnaməsinin (Əsasnaməsinin) müvafiq aktla təsdiq olunduğuna dair sənəd;
6. Hüquqi şəxslərin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq edilmiş surəti;
7. Fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
8. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar istisna olmaqla);
9. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
10. İmza və möhür nümunələri vərəqəsi;
11. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
12. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);

13. Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (hüquqi şəxsin nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdur);

14. VÖEN-nin surəti.

Cari hesabın açılması

(Hüquqi şəxslərin filialları, nümayəndəlikləri və digər ayrıca bölmələri üçün)

1. Ərizə;
2. Hüquqi şəxsin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq olunmuş surəti;
3. Filialın, nümayəndəliyin hüquqi şəxs tərəfindən təsdiq edilmiş Nizamnaməsinin (Əsasnaməsinin) əsli və ya notariat qaydasında təsdiq edilmiş surəti. Nümunəvi nizamnamə (əsasnamə) əsasında fəaliyyət göstərən qurumlar nizamnaməsinin (əsasnaməsinin) nümunəvi olduğunu təsdiq edən sənədi təqdim edir);
4. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar istisna olmaqla);
5. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli ;
6. İmza və möhür nümunələri vərəqəsi;
7. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti ;
8. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;
9. Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (hüquqi şəxsin nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdu.

Cari hesabın açılması

(Həmkarlar ittifaqının ilk təşkilatı üçün)

1. Ərizə;
2. Həmkarlar ittifaqı ilk təşkilatının yaradılması haqqında üzv olduğu həmkarlar ittifaqı birliyi tərəfindən təsdiq olunmuş qərar və ya qərardan çıxarış;
3. Üzv olduğu həmkarlar ittifaqı birliyinin notariat qaydasında təsdiq olunmuş nizamnaməsi;
4. İmza və möhür nümunələri vərəqəsi;
5. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
6. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;
7. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti ;
8. Təsisçilərin (baş təşkilatın) şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (Baş təşkilatın nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdur).

Cari hesabın açılması

(QHT-lər üçün)

1. Ərizə;
2. QHT-nin Nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
3. Qeyri-kommersiya hüquqi şəxslərinin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq edilmiş surəti (Ədliyyə Nazirliyi tərəfindən verilir);
4. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar istisna olmaqla);
5. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
6. İmza və möhür nümunələri vərəqəsi (notariat qaydasında təsdiq edilmiş);
7. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti ;
8. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;
9. VÖEN-nin surəti.

Cari hesabın açılması

(Xarici QHT-lərin filialları və nümayəndəlikləri üçün)

1. Ərizə;
2. QHT-nin Nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
3. Qeyri-kommersiya hüquqi şəxslərinin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq edilmiş surəti (Ədliyyə Nazirliyi tərəfindən verilir);
4. Filialın, nümayəndəliyin QHT-nin özü tərəfindən təsdiq edilmiş Nizamnaməsinin (Əsasnaməsinin) əsli və ya notariat qaydasında təsdiq edilmiş surəti. Nümunəvi Nizamnamə (Əsasnamə) əsasında fəaliyyət göstərən qurumlar Nizamnaməsinin (Əsasnaməsinin) nümunəvi olduğunu təsdiq edən sənədi təqdim edir);
5. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar istisna olmaqla);
6. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
7. İmza və möhür nümunələri vərəqəsi (notariat qaydasında təsdiq edilmiş);
8. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti ;
9. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti.

Cari hesabın açılması

(Ailə kəndli təsərrüfatı üçün)

1. Ərizə;
2. Müvafiq ərazi üzrə uçota alındığı bələdiyyə tərəfindən verilmiş vəsiqənin notariat qaydasında təsdiq edilmiş surəti;
3. Ailə kəndli təsərrüfatının başçısının şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
4. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
5. İmza nümunəsi vərəqəsi.

Cari hesabın açılması

(Fiziki şəxslər üçün)

1. Şəxsiyyəti təsdiq edən sənəd (sənəddəki məlumatlar imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
2. İmza nümunəsi vərəqəsi.

Müvəqqəti cari hesabın açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə (ərizə təsisçi (təsisçilər) və ya müvəkkil edilən şəxs (şəxslər) tərəfindən imzalanır);
2. Hesabın açılması üçün təsisçinin (təsisçilərin) müvəkkil etdiyi şəxs müraciət etdikdə, həmin şəxsə təsisçi (təsisçilər) tərəfindən verilmiş və notariat qaydasında təsdiq olunmuş etibarnamə;
3. Müvəkkil şəxsin şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
4. İmza nümunəsi vərəqəsi;
5. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
6. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
7.Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (hüquqi şəxsin nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdur).

Ssuda hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Kredit müqaviləsinə əsasən kreditin istifadəsi və ödənilməsi cari hesab vasitəsilə həyata keçirildikdə, ssuda hesabının açılması üçün kreditin rəsmiləşdirilməsinə dair sənədlər;
2. Kredit müqaviləsinə əsasən kreditin istifadəsi və ödənilməsi bilavasitə ssuda hesabı vasitəsilə həyata keçirildikdə, cari hesabların açılması üçün tələb olunan sənədlər;
3. Fərdi sahibkar olmayan fiziki şəxslər üçün bu Qaydalarda əmanət hesablarının açılması üçün tələb olunan və kreditin rəsmiləşdirilməsinə dair sənədlər;
4. VÖEN-nin surəti.

Əmanət (depozit) hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:
(Dövlət orqanları, bələdiyyələr, hüquqi şəxslər və fərdi sahibkarlar üçün)

1. Ərizə;
2. Dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatlara bank hesabının açılması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin icazə məktubu;
3. Bələdiyyənin Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktın mətni;
4. Hüquqi şəxsin Nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
5. Müvafiq dövlət hakimiyyəti orqanının aktı ilə təsdiq olunmuş nizamnamə (əsasnamə) əsasında fəaliyyət göstərən dövlət orqanının nizamnaməsinin (əsasnaməsinin) müvafiq aktla təsdiq olunduğuna dair sənəd;
6. Hüquqi şəxslərin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq edilmiş surəti;
7. Fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
8. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar istisna olmaqla);
9. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
10. İmza və möhür nümunələri vərəqəsi;
11. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
12. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);

13. Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (hüquqi şəxsin nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdur);
14. VÖEN-nin surəti.

Əmanət (depozit) hesabının açılması

(Ailə kəndli təsərrüfatı üçün)

1. Ərizə;
2. Müvafiq ərazi üzrə uçota alındığı bələdiyyə tərəfindən verilmiş vəsiqənin notariat qaydasında təsdiq edilmiş surəti;
3. Ailə kəndli təsərrüfatın başçısının şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
4. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
5. İmza nümunəsi vərəqəsi.

Əmanət (depozit) hesabının açılması

(Fiziki şəxslər üçün)

1. Şəxsiyyəti təsdiq edən sənəd (sənəddəki məlumatlar imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
2. İmza nümunəsi vərəqəsi.

Üçüncü şəxslərin xeyrinə bank əmanəti (depozit) hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Xeyrinə hesab açılan şəxsin eyniləşdirilməsini mümkün edən məlumatlar (hüquqi şəxs üçün-onun adı və dövlət reyestrindən çıxarışın məlumatları, fiziki şəxs üçün-adı, atasının adı, soyadı, şəxsiyyətini təsdiq edən sənədin məlumatları və təqdim edildikdə həmin sənədlərin surətləri);
3. Hesabı açan fiziki şəxs olduqda, şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatlar imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
4. Hesabı açan hüquqi şəxs olduqda, Nizamnaməsinin və Hüquqi Şəxslərin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq edilmiş surətləri.
5. Xeyrinə depozit hesabı açılan şəxs hesab üzrə əmanətçi hüquqlarından istifadə etmək niyyətini banka bildirdikdə, ərizə (Əlavə № 1) ilə birlikdə bu Qaydalarda belə şəxslərə əmanət (depozit) hesabı açılması üçün tələb olunan sənədləri təqdim edir.
6. Hesabı açan şəxs açdığı hesabdan Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq surətdə özü istifadə etdikdə, həmin şəxs əlavə olaraq əmanət (depozit) hesabının açılması üçün tələb olunan sənədləri təqdim edir.
7. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu (bundan sonra - Dövlət Sosial Müdafiə Fondu) tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar istisna olmaqla);
8. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
9. VÖEN-nin surəti (fərdi sahibkarlar və hüquqi şəxslər).

Cari subhesabın açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Hüquqi Şəxsin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq olunmuş surəti;
3. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri olmayan sığortaedənlər üçün);
4. Vergi orqanı tərəfindən baş təşkilata verilmiş şəhadətnamə-dublikatın əsli (yerli qurum vergi ödəyicisi olduqda özünün şəhadətnamə-dublikatının əsli);
5. İmza və möhür nümunələri vərəqəsi;
6. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
7. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
8. Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (hüquqi şəxsin nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdur);
9. VÖEN-nin surəti.

Bankların və bank olmayan kredit təşkilatlarının bank hesablarının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Hüquqi Şəxsin Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq olunmuş surəti;
3. Filialın, nümayəndəliyin, digər ayrıca bölmənin yuxarı təşkilatı tərəfindən təsdiq edilmiş Nizamnaməsinin (Əsasnaməsinin) əsli və ya notariat qaydasında təsdiq edilmiş surəti. Nümunəvi Nizamnamə (Əsasnamə) əsasında fəaliyyət göstərən qurumlar nizamnaməsinin (əsasnaməsinin) nümunəvi olduğunu təsdiq edən sənədi təqdim edir);
4. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (qeyri-kommersiya hüquqi şəxslərin filialları və nümayəndəlikləri üçün);
5. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
6. İmza və möhür nümunələri vərəqəsi;
7. Sənədlərə əlavə olaraq Mərkəzi Bank tərəfindən verilən bank fəaliyyətinə dair xüsusi razılığın (lisenziyanın), banklar tərəfindən, həmçinin, hesab üzrə sərəncam hüququna malik inzibatçının Mərkəzi Bankda attestasiyadan keçməsini təsdiq edən attestasiya vərəqəsinin notariat qaydasında təsdiq olunmuş surəti təqdim olunur;
8. VÖEN-nin surəti.

Məhkəmənin, icra qurumunun, gömrük orqanının, cinayət təqibini həyata keçirən dövlət orqanlarının, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər dövlət orqanlarının depozit hesabları açılması üçün aşağıdakı sənədlərin təqdim olunması tələb olunur:

1. Ərizə;
2. İmza və möhür nümunəsi vərəqəsi.

Sığorta girovu hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün Şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surəti;
3. İmza və möhür nümunələri vərəqəsi.

Zəmanət kassası hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Xüsusi notariusun Qeydiyyat Vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti;
3. İmza və möhür nümunələri vərəqəsi.

Dövlət və xüsusi notariusun depozit hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Şəxsiyyəti təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
3. Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surəti;
4. Notariat fəaliyyətinə nəzarəti həyata keçirən Ədliyyə Nazirliyinin müvafiq qurumunun notariusun bankda depozit hesabının açılmasına razılıq məktubu (dövlət notariusları üçün) əsli;
5. Xüsusi notariusun Qeydiyyat Vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti (xüsusi notariuslar üçün);
6. İmza və möhür nümunələri vərəqəsi.

Xüsusi notariusun carı hesabının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
3. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
4. İmza və möhür nümunələri vərəqəsi;
5. Fərdi Sahibkarın VÖEN-nin surəti.

Rezidentlərə xarici valyutada bank hesablarının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatlara bank hesabının açılması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığının icazə məktubu;
3. Bələdiyyənin, hüquqi şəxsin Nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti. Müvafiq dövlət hakimiyyəti orqanının aktı ilə təsdiq olunmuş Nizamnamə (Əsasnamə) əsasında fəaliyyət göstərən dövlət orqanı Nizamnamənin (Əsasnamənin) müvafiq aktla təsdiq olunduğunu subut edən sənədi təqdim edir;
4. Dövlət qeydiyyatı haqqında sənədin notariat qaydasında təsdiq edilmiş surəti (bələdiyyələr və hüquqi şəxslər üçün);
5. Fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların hesabın açılmasına dair ərizədə və imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
6. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (kommersiya hüquqi şəxsləri və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər istisna olmaqla);
7. Müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli;
8. İmza və möhür nümunələri vərəqəsi;
9. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
10. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);
11. Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin sürətləri (hüquqi şəxslər üçün);
12. Milli valyutada bank hesabı olan bankda xarici valyutada bank hesabının açılması üçün müştəri tərəfindən hesabın açılmasına dair ərizənin, habelə müvafiq hallarda

Dövlət sosial Müdafiə Fondu və Vergi orqanları tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli təqdim olunur;

13. VÖEN-nin surəti.

Rezidentlərə (kredit təşkilatları istisna olmaqla) qeyri-rezident banklarda bank hesablarının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Rezidentlər sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident banklarda hesab açarkən vergi orqanlarından şəhadətnamə-dublikat almalı və hesab üzrə əməliyyatlar aparıldığı tarixədək bildiriş hissəsini müvafiq qeydlər etməklə vergi orqanına təqdim etməlidirlər.

Qeyri-rezidentlərə milli və xarici valyutada bank hesablarının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin Azərbaycan Respublikasında Dövlət Reyestrindən Çıxarışının notariat qaydasında təsdiq olunmuş surəti (hesab xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri üçün açıldıqda);
3. Xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmiş Nizamnaməsinin (Əsasnaməsinin) əsli və ya notariat qaydasında təsdiq olunmuş surəti (hesab xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri üçün açıldıqda);
4. Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəd (sənəddəki məlumatların imza nümunəsi vərəqəsində göstərilənlərə uyğunluğu yoxlanılır, bankda saxlanılması üçün sənədin surəti çıxarılır və sənəd geri qaytarılır);
5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmadıqda, hüquqi şəxs olan qeyri-rezidentin təsis və qeydiyyat sənədlərinin qanunvericiliyə müvafiq qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilmiş surətləri (hesab xarici hüquqi şəxs üçün açıldıqda);
6. Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (qeyri-kommersiya hüquqi şəxsləri olan sığortaedənlər üçün);
7. Vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatın əsli (sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan hesabların açılması halları istisna olmaqla, xarici hüquqi şəxslər, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri, fərdi sahibkarlar üçün);
8. İmza və möhür nümunələri vərəqəsi;
9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəzərdə tutulduğu halda, hesabın açılması üçün xarici ölkənin müvafiq dövlət orqanının (mərkəzi bankının və ya digər dövlət orqanının) xüsusi icazəsi;

10. Rəhbərin (qanuni təmsilçinin) əmrinin, yaxud təyin olunmasına dair qərarın təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);

11. Rəhbərin (qanuni təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti (hüquqi şəxslər üçün);

12. Təsisçilərin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri (hüquqi şəxsin nizamnamə kapitalının 100% paya sahib olan təsisçisi dövlət müəssisəsi olarsa, həmin təsisçinin nizamnaməsini tələb etməyə ehtiyac yoxdur);

13. VÖEN-nin surəti.

Rəsmi nümayəndəliklərə bank hesablarının açılması üçün aşağıdakı sənədlər təqdim olunur:

1. Ərizə;
2. Xarici diplomatik və digər rəsmi nümayəndəliyin statusunu təsdiqləyən sənəd (Azərbaycan dilinə tərcümə edilmiş və notariat qaydasında təsdiq edilmiş surəti);
3. İmza və möhür nümunələri vərəqəsi.

Xarici bankların milli valyutada (manatda) və xarici valyutada müxbir hesablarının açılması üçün aşağıdakılar tələb olunur:

1. Ərizə;
2. Bankın Nizamnaməsinin və ya hüquqi statusunu əks etdirən digər sənədin, habelə qeydiyyatdan keçən ölkənin müvafiq dövlət orqanı tərəfindən bank fəaliyyətinə icazə verən sənədin surətləri;
3. Auditor rəyi ilə təsdiq olunmuş son ilin maliyyə hesabatı;
4. Bankın rəhbərliyi haqqında məlumat, habelə hesab üzrə sərəncam vermək hüququ olan şəxsin (şəxslərin) imza nümunələrinin və bankın möhürünün əksi;
5. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə nəzərdə tutulduğu halda, xarici bankın yerləşdiyi ölkənin səlahiyyətli orqanı tərəfindən (mərkəzi bank və ya digər səlahiyyətli orqan) müxbir hesabın açılmasına verilmiş icazə (qanunvericiliyə müvafiq qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilmiş surəti).
6. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə bankın daxili nəzarət sistemi və bu sahəyə məsul şəxsi barədə, bankın əsas fəaliyyət istiqamətləri və sağlam nüfuzu barədə, habelə hər hansı səlahiyyətli orqan tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı banka qarşı istintaq hərəkətlərinin həyata keçirilməsi və/və ya nəzarət tədbirlərinin görülməsi barədə məlumat;
7. Xarici bankın shell-bank (hər hansı ölkədə fiziki mövcudluğu olmayan və bank tənzimləməsi və nəzarəti orqanları tərəfindən tənzimləmə və nəzarət prosesləri ilə əhatə edilməyən bank) vasitəsilə işgüzar münasibətlərin yaradılmaması və ya əməliyyatların həyata keçirilməməsi barədə məlumat.